

## MƏHƏRRƏM ANAR

### OLMASIN

Elə yaşama ki, bu həyatda sən,
Bir dəfə qapını döyən olmasın.
Süfrən açıq olsun, ayrılma eldən,
Çörəyə xəsisdir deyən olmasın.

Yersiz danışandan incimə, küsmə,
Ya saxla söhbəti, ya qulaq asma,
Haqsızlıq görəndə haqqı de, susma,
Yanında özünü öyən olmasın.

Həyatda öz yeri nökərin-bəyin,
Itirmə heç kəsin haqqın-əməyin,
Elə kəslə dost ol, duzu-çörəyi,
Dizinin üstündə yeyən olmasın.

Axtarma məclisdə naşını-xamı,
Bil ki, sadəlikdir hər işin camı.
Gələndə, elə gəl sevinsin hamı,
Gedəndə dalınca söyən olmasın.

Məhərrəm, dərd-qəmi buraxma yaxın,
Ehtiyac didərgin salıbdır çoxun,
Nə özün kiminsə şəxsinə toxun,
Nə sənin qəlbinə dəyən olmasın.

### SƏNİNLƏ XOŞBƏXTƏM YUXULARIMDA

Bu gecə yuxuma gəlmisən yenə,
Deyirəm, qayıt gəl!.. Gecdir, - deyirsən
Deyirəm, xoş günlər borcluyam sənə,
Baxıb, qəmli-qəmli gülümsəyirsən.

Görürəm, eləcə gözəl qalmısan,
Mələklər cənnətdən göndəribdi pay.
Sevindim, barı sən xoşbəxt olmusan,
Mən də talehimlə barışmışam tay.

Səni də sıxıbdır ayrılıq, hicran,
Qara tellərinə düşüb təzə dən.
Qəfil oyanmaqdan qorxuram yaman,
Qorxuram itirəm səni təzədən.

İzin ver, gözünün yaşını silim,
Bu hicran oduna sən də yanmısan.
Haraya, hər kimə baxsam da, gülüm,
Gözümün önündə sən dayanmısan.

Bir dünya bəxş etdin mənə bu gecə,
Nə xoşdur can deyib eşitdikcə can.
Yuxuma gəlmisən yenə bu gecə,
Heyif, gedəcəksən söküləndə dan.

Bir sual incidir bizi nə vaxtdır,
Bu sirri illərdir daşıyırıq biz.
Biz kimi sevirik, bizdən uzaqdır,
Bizi sevənlərlə yaşıyırıq biz...

Bu gecə sultanam, bu gecə bəyəm,
Açmış bənövşəmsən ilk baharımda.
Sənsiz bu dünyanın ən bədbəxtiyəm,
Səninlə xoşbəxtəm yuxularımda...

### SƏNİ

Qurban olum yaradana,
Bənzədibdi gülə səni.
Hər gülü bir cür yaradıb,
Xəlq eyləyib belə səni.

Unutduqmu əhdi, andı?
Bircə tanrıya bəyandı.
Yollarımız parçalandı,
Kimlər tutdu dilə səni?

Qəm-kədərə batıb getdim,
Qaşlarımı çatıb getdim,

Sanki, oda atıb getdim,
Özüm bilə-bilə səni.

Kaş o günlər dönə bir də,
Dözəmmirəm tay bu dərdə.
Neçə arzumla bir yerdə,
Böldüm yadlar ilə səni.

Sandım- qoçağam, nərəm mən,
Harayına yetərəm mən.
Xan çobandan betərəm mən,
Qurban verdim selə səni!

Qismət yazılsa da haqdan,
Məhərrəm dözür o vaxdan,
Yaş əllini ötüb çoxdan,
Gözləyirəm hələ səni...

## *CƏBRAYILI GÖRMƏMİŞ*

Yurdumuzu qarış-qarış gəzməmiş,
Kol dibindən bənövşəni üzməmiş,
Bir gözəlin tellərinə düzməmiş,
Görüşünə gül-çiçəksiz gəlmərəm,
Cəbrayılı mən görməmiş ölmərəm.

Qürbət eldə dərd əlində nökərəm,
Bəzən bulud kimi sıxıb tökərəm.
Bu dərd öz dərdimdir, özüm çəkərəm,
Heç kiminən paylaşmaram, bölmərəm,
Cəbrayılı mən görməmiş ölmərəm.

Hardan alım Kəpirbulaq çeşməsin,
Yanan ürək alovlanıb bişməsin,
Qoy əzrayıl bığlarını eşməsin,
Tezdimi, gecdimi onu bilmərəm,
Cəbrayılı mən görməmiş ölmərəm.

İstərdim dağında kol olum, bitim,
Dumana, çiskinə bürünüm, itim.
Ordadır gəncliyim, ilk məhəbbətim,
O illəri yaddaşımdan silmərəm,
Cəbrayılı mən görməmiş ölmərəm.

Hər yetən yurdumdan kəsibdir bir az,
Bir yandan qonşular, bir yandan Araz.
Qoy bilsin nəsillər, tarixlərə yaz,
Bu haqsız dünyaya bir də gəlmərəm,
Cəbrayılı mən görməmiş ölmərəm.

Bu da bir sınaxdır talehdən bizə,
Dərdim köhnə dərddir, ümüdüm təzə.
Bilirəm az qalıb görüşümizə,
Elinən gözləyir, dözür Məhərrəm,
Cəbrayılı mən görməmiş ölmərəm.

## *YAŞA*

Könül, ürəyindən keçən sözləri,
Mirvaritək misralara düz, yaşa
Hər səhvi olanın hakimi olma,
İmakanın var, çalış özün düz yaşa.

El xəbərin, onnan-bunnan alanda,
Qürbət eldə, saralanda, solanda,
Bulud kimi hey boşalıb, dolanda,
Dərd ürəyə həmdəm olar, göz, yaşa.

Şükr et Yaradana, dövlətin çoxsa,
Acı da unutma, öz qarnın toxsa,
Eldə, ailədə hörmətin yoxsa,
Nə ömürdür, əlli yaşa, yüz yaşa.

Pis əməli, ağlına da gətirmə,
Gül yanında tikan əkib, bitirmə,
Gödək ömrü dilbilməzə itirmə,
Bir baxışdan anlayandan yaz, yaşa.

Qəlbin təmiz olar, səbrin geniş, bol,
Haqqın yoludursa getdiyin bu yol.
Dədən, baban kimi mərd yaşa, mərd ol,
Qürurla get, lap çoxundan az yaşa.

Məhərrəm, isitmir yad od, yad ocaq,
Ha deyib-gülsən də dərdin bir qucaq.
Elinlə, obanla xoşbəxtsən ancaq,
Ömrü boyu, qürbət eldə gəz, yaşa...

## *TƏSƏLLİM*

Özümü aldatmaq, təsəllim olub,
Sən yoxsan - deməyə dilim gəlmədi.
Yazdığın məktublar saralıb, solub,
Atmağa ürəyim, əlim gəlmədi...

Olmadı gərəyim nazlı gözəllər,
Tək sənin eşqinlə yazdım, yaratdım.
Ötdükcə ömürdən bu sənsiz illər,
Sənli xəyallarla başımı qatdım.

Özümü yandıran öz ahım olub,
Ərşə çəkiləndə haçan yuxular.
Ümidlə açılan sabahım olub,
Bir vaxt gözlərimdən qaçan yuxular.

Kim bilir, qarşıda nələr olacaq,
Özgə bir sevgiyə, bəxtə qonağıq.
Kim necə yaşayır bilmirik, ancaq,
Bir onu bilirik, hələ ki, sağıq...

Heyif, gec anladım sevib, sevilmək,
Həyatın ən şirin, gözəl anıymış,
Bu uzun hicranın sonunu bilmək,
Bir gödək ömürün imtahanıymış.

## *OLDUQ*

İlk dəfə göz açdıq fani dünyaya,
Bələyin əlində oyuncaq olduq.
Böyüyüb can atdıq dünya sirrinə -
Gileyin əlində oyuncaq olduq.

Əzəldən bilsəydik bu eşqin sonun,
Sonacan qeydinə qalardıq onun.
Əlçatmaz, ünyetməz neçə arzunun,
Diləyin əlində oyuncaq olduq.

Bəzən aldanırıq uşağa dönüb,
Bəzən yox oluruq torpağa dönüb.
Budaqdan üzülmüş yarpağa dönüb,
Küləyin əlində oyuncaq olduq.

Sən bu zəmanəyə, qədərə bir bax,
Ölüm haqdı, zülüm olub yaşamaq,
Xırmandan, xəlbirdən çıxıb üzüağ,
Ələyin əlində oyuncaq olduq.

Qeydinə qalmadıq qeydəqalanın,
Dərdini çəkirik dərdə salanın.
Baldan şirin olan neçə yalanın,
Kələyin əlində oyuncaq olduq.

Məhərrəm, həsrətin gör neçə ildi,
Taleh od elədi, düşmənsə güldü.
Nə yazdı, nə pozdu bir özü bildi,
Fələyin əlində oyuncaq olduq.

## *QAYIT, GƏL*

Qayıt, inanıram mərhəmətinə,
Nə olub - yaddaşdan silib atanam.
Sənsiz sevincim də su qiymətinə,
Gecə-gündüz dərd-qəm alıb, satanam.

Bir hikməti dərk eylədim nəhayət,
Sənsiz mənə nəyə gərək bu həyat?
Elə sevdim, Leyli-Məcnun qaldı mat,
Sevmədim ki, saf eşqimdən utanam.

Mən nələr çəkirəm hər gecə, hər gün?
Eşqim əsir düşüb, özümsə sürgün,
Fikrin yuxumu da salıb didərgin,
İlan vuran yatar, çətin yatanam.

Arzularla qayıtsam da elə mən,
Sənsiz ömrü xırdaladım belə, mən.
Ümidlərlə yaşayıram hələ mən,
Bir yol görəm, min arzuma çatanam.

Məhərrəm, dumanlı-çiskinli dağam,
Bəzən az qalıb ki, leysantək yağam,
Desəm də: "Mən səni unudacağam",
Sənsiz bu dünyada itib-batanam...

## *BİR GÖZƏLƏ VURULMUŞAM*

Bir gözələ vurulmuşam,
Neçə aydı, neçə ildi.
Gözləməkdən yorulmuşam.
Dilsiz, ağızsız bir daşam,
Elə bil ki, lal olmuşam,
Bu nə fitnə, bu nə feldi,
Nə mən dedim, nə o bildi.

Bilmirəm ünvanın, yerin,
Vurğunuyam o gözlərin.
Dodaqları baldan şirin,
Lalə yanaq, incəbeldi.
Nə mən dedim, nə o bildi.

Deyən ola o zalıma,
Bircə yol çıxsın yoluma.
Mənim bu müşgül halıma,
Dost da güldü, yad da güldü,
Nə mən dedim, nə o bildi.

Yollara baxmaqdı peşəm,
Yox güman, yadına düşəm.
Sübhə qədər gözləmişəm,
Nə mən getdim, nə o gəldi,
Nə mən dedim, nə o bildi.

Bu yaşımda, bu çağımda,
Yandı sönmüş ocağım da.
Payız gəlmiş eşq bağımda,
Tənha açmış qızılgüldü,
Nə mən dedim, nə o bildi.

Məhərrəmin bir kəlməsin,
Bəs kim gedib ona desin?
Bilməyir, heç qoy bilməsin,
Dostlar, sevmək nəgözəldi!
Bir gözələ vurulmuşam,
Neçə aydı, neçə ildi,
Nə mən dedim, nə o bildi.